**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

-----------------------------------------------------------------------------------

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

==============================================

*Əlyazması hüququnda*

**MƏMMƏDOV ZAMIQ İSGƏNDƏR OĞLU**

# AZƏRBAYCANIN AĞAC EMALI - MEBEL ISTEHSALI SƏNAYESININ MÜASIR VƏZIYYƏTI VƏ PERSPEKTIV INKIŞAF ISTIQAMƏTLƏRI

**5304.01 – "İqtisadi fəaliyyət növləri"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2013**

Dissertasiya işi Azərbaycan Texniki Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor **Əli Xudu oğlu Nuriyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor **Fizuli Əziz oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent **Yaqub Feyzulla oğlu Əlifov**

**Aparıcı təşkilat:** **Azərbaycan Memarlıq və İnşaat Universiteti**

Müdafiə «29» mart 2013-ci il saat $16^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «26» fevral 2013-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzusunun aktuallığı.** XX əsrin 90-cı illərində yenidən müstəqillik əldə etmiş Azərbaycan ciddi sarsıntılara məruz qalsa da həyata keçirilmiş uğurlu islahatlar nəticəsində artıq XXI əsrin ikinci onilliyinə sabit və güclü iqtisadiyyata malik bir dövlət kimi daxil olmuşdur. Respublikamızda demokratik cəmiyyət quruculuğu müvəffəqiyyətlə həyata keçirilir.

Neft strategiyasının uğurla reallaşması nəticəsində iqtisadiyyatın bütün sahələrinin, xüsusilə də qeyri-neft sektorunun sürətlə və davamlı inkişafı təmin edilir, yeni iş yerləri açılır, işsizliyin və yoxsulluğun səviyyəsi sürətlə aşağı düşür. Bütün bunlar əhalinin, xalq təsərrüfat sahələrinin, xüsusilə sənaye, tikinti, ticarət sahələrinin meşə materiallarına, ağac emalı məhsullarına, müxtəlif növ mebellərə olan tələbatını artırır. Bu tələbatın müvəffəqiyyətlə ödənilməsi mənafeyi dövlət və müəssisələr tərəfindən ağac emalı və mebel istehsalının inkişafı üçün müxtəlif təşkilati, maliyyələşmə və tənzimləmə tədbirlərinin həyata keçirilməsi ilə yanaşı, onun sahə və ərazi quruluşunun təkmilləşməsi, yeni məhsullar istehsalının mənimsənilməsi və xammal emalı prosesinin dərinləşməsi istiqamətində elmi tədqiqatlar aparılmasını, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi istiqamətində təklif və tövsiyələr hazırlanmasını tələb edir. Bu problem Azərbaycan şəraitində həm də ona görə aktualdır ki, Respublikamızda əhalinin ağacemalı məhsulların tələbatının ödənilməsi səviyyəsinin yüksəlməsi üçün böyük daxili imkanlar vardır. Lakin bu sahədə XX əsrin 70-80-ci illərində əldə olunmuş nailiyyətlər qorunub saxlanmamış, 90-cı illərin əvvələrində iri mebel istehsalı və ağac emalı müəssisələri dağılmışdır. Hazırda onun inkişaf tempi, sahə quruluşu, səmərəlilik səviyyəsi Respublikanın imkanlarından və tələbatından çox geri qalır. Böyük xalq təsərrüfat əhəmiyyəti kəsb etməsinə və bu əhəmiyyətin bazar iqtisadiyyatı şəraitində daha da artmasına baxmayaraq, hələ sovetlər ittifaqı dövründə bu sahə az tədqiq olunmuşdu. Halbuki, bu müddət ərzində cəmiyyət əsaslı surətdə yenidən qurulmuş, sənayedə müxtəlif mülkiyyət formaları yaranmış və inkişaf etmişdir.

Ağacemalı və mebel istehsalı – Azərbaycan sənayesinin perspektivli sahələrindən biridir. Həmin sahə son illər əhəmiyyətli dərəcədə inkişaf etmiş və onun məhsuluna tələbat artmışdır. Eyni zamanda yerli mebel müəssisələri hələ bu məhsula olan tələbatı tam şəkildə ödəyə bilmirlər. Belə ki, mövcud mebel müəssisələrinin əksəriyyəti kişik müəssisələrdir. Orada maddi-texniki baza zəif istifadə olunur. Bunu aşağıdakı statistik rəqəmlər də sübut edir: ağacemalı və mebel istehsalının ümumi sənaye



istehsalında xüsusi çəkisi 0,2-0,8%-dır, bu sahalərdə işləyənlərin sayı isə sənayedə işləyənlərin ümumi sayının 2,5-2,6% təşkil edir. Sənaye sahəsinə qoyulmuş investisiyaların ümumi srukturunda ağacemalı və mebel istehsalı sahələrinə qoyulan investisiyaların xüsusi çəkisi çox aşağıdır. Bundan belə nəticəyə gəlmək olar ki, bu sahənin inkişafını sürətləndirmək üçün əlavə tədbirlər görünməlidir, həmçinin mebel istehsalı və ağac emalının inkişafına dair müvafiq tədqiqatların aparılması zəruridir. Bu səbəbdən seçilmiş mövzu müasir iqtisadiyyatın aktual problemlərindən birinə həsr olunub.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycanda öz tədqiqatlardın ağac emalı və mebel istehsalına müəyyən qədər yer vermiş alimlərin sırasında Z.Ə.Samədzadə, A.A.Nadirov, Ə.X.Nuriyev, T.N.Əliyev, M.H.Ağamaliyev, Z.Q.Asifov, R.S. Əliyeva, M.A.Hüseynov, M.M.Məmmədrzayev, K.R.Paşayev, V.T.Səfərova, İ.A.Feyzullabəyli və s. adını çəkmək olar.

MDB ölkələrində həmin problem ilə Abalkin L.İ., Aniskin L.İ., Belyaev İ.Y., Qorbunova A.R., Koquq A.E., Moiseev S.B., Şitkin İ.S., Eskenderov M.A. və s. iqtisadçi-alimlər məşğul olmuşlar. Lakin bu alimlər mövzuya aid tədqiqatları ya nisbətən uzaq keçmişdə aparmış, ya da digər mövzunun tədqiqi zamanı bu mövzuya köməkçi və tamamlayıcı vasitə kimi yer vermişlər.

Eyni zamanda ağacemalı və mebel istehsalı sahəsində təşkilatı-iqtisadi amillər hələ də az tədqiq olunmuş qalır və bunun ilə bağlı məsələlərin tədqiqatı elmi cəhətdən hələ də aktualdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Respublikanın ağac emalı və mebel istehsalı sənayesinin inkişaf vəziyyətini təhlil etməklə problemlərini aşkara çıxarmaq və onların həllinə aid konkret təkliflər verməkdir. Bu məqsədə uyğun olaraq, aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- bazar iqtisadiyyatı şəraitində ağac emalı və mebel istehsalı sənayesinin inkişafı və ərazi təşkilində baş verən dəyişiklikləri nəzəri-metodoloji cəhətdən əsaslandırmaq;
- ağac emalı və mebel istehsalı sənayesinin inkişafının dövlət tənzimlənməsi xüsusiyyətlərini şərh etmək və nəzəri cəhətdən ümumiləşdirmək;
- respublikada müstəqillik ərəfəsində və onun ilk illərində ağac emalı və mebel istehsalı sənayesinin vəziyyətini təhlil etmək və onun böhrana düşməsi səbəblərini aşkara çıxarmaq;
- ağac emalı və mebel istehsalı sənayesinin inkişafının müasir vəziyyətini təhlil etmək, iqtisadi və sosial baxımdan qiymətləndirmək;
- ağac emalı və mebel istehsalının sahə və ərazi quruluşunun tək-

milləşməsi yollarını göstərmək;

- sahənin idarəetmə və tənzimləmə mexanizminin təkmilləşməsi istiqamətlərini əsaslandırmaq;
- müəssisələrin ərazi təmərküzləşməsinin təkmilləşməsi istiqamətlərini müəyyən etmək;
- iqtisadi əlaqələrin inkişaf istiqamətlərini göstərmək;
- ağac emalı və mebel istehsalı sənayesinin yerli xammal bazasının inkişafı və keyfiyyətinin yüksəlməsi, elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə istiqamətində təkliflər hazırlamaq.

**Tədqiqatın obyekti.** Azərbaycanın ağac emalı və mebel istehsalı sənayesi və onun ayrı-ayrı struktur bölmələridir.

**Tədqiqatın predmetini** ağac emalı və mebel istehsalı sənayesində baş verən inkişaf, idarəetmə və transformasiya prosesləri və struktur dəyişikliklər təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** Azərbayca Respublikasının müvafiq qanunları, ölkə Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və İqtisadi İnkişaf Nazirliyinin qərarları, proqramları, iqtisadçı-alimlərin elmi əsərləri, elmi abstraksiya, statistik təhlil, qruplaşdırma və müqayisə metodları təşkil edir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Dövlət Statistika Komitəsinin materialları, ağac emalı və mebel istehsalı sənayesində iqtisadi islahatların aparılmasına dair mövcud normativ-hüquqi sənədlər, internet materialları, həmçinin mövzu ilə əlaqədar elmi ədəbiyyatların və dövrü mətbuatda nəşr edilmiş məlumatlar təklif edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Son 25 ildə, xüsusilə müstəqillik illərində ilk dəfə olaraq meşə, ağac emalı və mebel sənayesi bazar iqtisadiyyatının tələblərini nəzərə almaqla, kompleks tədqiq edilib. Bu sahənin gələcək səmərəli inkişafı və əhalinin tələbatına uyğunlaşdırılması üçün bir sıra təkliflər hazırlanmışdır. Bununla yanaşı, aşağıdakı elmi yenilikləri qeyd etmək olar:

- müasir dövrdə ağac emalı və mebel istehsalı sənayesinin inkişaf xüsusiyyətləri aşkara çıxarılmış;
- ağac emalı və mebel istehsalının dövlət tənzimlənməsinin təkmilləşməsi istiqamətləri müəyyən edilmiş;
- ağac emalı və mebel istehsalının strukturunun təkmilləşməsi istiqamətində tədbirlər müəyyənləşdirilmiş;
- emalın dərinləşməsi və yeni məhsullar alınması, məhsulun keyfiyyətinin yüksəlməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflər verilmiş;



- ağac emalı və mebel istehsalının ərazi təşkilinin təkmilləşməsi yolları göstərilmişdir.

**İşin təcrübi əhəmiyyəti.** Tədqiqatın nəticələri, verilmiş təklif və tövsiyələr ağac emalı və mebel istehsalı sənayesinin inkişaf proqramlarının hazırlanması və tətbiqində, tədris prosesində, elmi-tədqiqat işlərində, ayrı-ayrı ağac emalı və mebel istehsal müəssisələrin təsərrüfatının yenidən qurulması və genişləndirilməsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi**. Dissertasiya işinin əsas müddəaları respublika və beynalxalq səviyyəli konfranslarda çap olunub. Tədqiqat nəticəsində irəli sürələn təkliflər "İnşaatçı – RC" şirkəti tərəfindən istifadə üçün qəbul edilmişdir (14 yanvar 2013 – cü il, arayış №017). **İşin həcmi və quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, o cümlədən doqquz paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olub, kompüter yazısı ilə 152 səhifədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı, onun öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, predmeti və obyekti, elmi yeniliyi, işin aprobasiaysı, mövzu üzrə çap olunmuş elmi əsərlərin sayı və dissertasiyanın srukturu əks olunmuşdur.

Dissertasiya işinin **«Ağac emalı-mebel istehsalının nəzəri-metodoloji əsasları, müstəqilliyə qədər onun Azərbaycanda reallaşması xüsusiyyətləri»** adlı birinci fəslində bazar iqtisadiyyatı şəraitində ağac emalı və mebel istehsalının inkişafının nəzəri-metodoloji əsasları, müasir dövrdə ağac emalı və mebel istehsalı sahəsində qabaqcıl ölkələrin təcrübəsi, Azərbaycanda XX əsrin 70-ci illərinə qədər və 1971-1990-cı illərdə ağac emalı və mebel istehsalının inkişafı və ərazi təşkili xüsusiyyətləri kimi məsələlər tədqiq olunur.

Ağac emalı və mebel istehsalı sənayesi müxtəlif meşə materiallarından xammal kimi istifadə etməklə ayrı-ayrı sahələr üçün taxta-şalban materialları, ağac yonqarlı və ağac lifli plitələr, fanerlər, parket, fibrolit, xarrat-dülgər məmulatları, mebel və s. kimi hazır və yarımhazır məhsullar istehsal edir. Meşə sahələrinin mövcudluğu bu sənaye sahəsinin inkişafının ümumi təbii əsasıdır və şübhəsiz ki, tarixən bu təbii əsas olan ərazilərdə ağac emalı və mebel istehsalının ibtidai formaları yaranmışdır. Sonralar dəniz, çay nəqliyyatı, dəmir yol nəqliyyatı bu sahənin inkişafına güclü təsir göstərmiş və yeni ərazilərdə, ölkələrdə inkişafına səbəb olmuşdur. Təbiidir ki, müxtəlif tarixi inkişaf mərhələlərində bu amillər ağac emalı və mebel

istehsalına müxtəlif təsir göstərmişdir. Əhalinin gəlirlərinin artması, mədəni-texniki səviyyəsinin yüksəlməsi, mənzil tikintisinin artması və yeni texnika-texnologiyaların tətbiqi XX əsrdə bu sənaye sahəsinin inkişafında müstəsna rol oynamışdır. XX əsrin ikinci yarısında kimya sənayesinin güclü inkişafı, ağac məmulatlarını əvəz edə bilən məhsullar istehsalının artması bir çox sahələrdə ağac emalı və mebel istehsalına tələbatı qismən azaltsa da bütövlükdə bu sahənin məhsuluna tələbatın artması yenə də müşahidə olunur.

Ağac mexaniki və kimyəvi üsulla emal edilir. Ayrı-ayrı müəssisələrdə bu və ya digər məmulat növünün hazırlanmasında müəyyən ixtisaslaşma getsə də ümumilikdə ağac emalı müəssisələrində oduncağın kompleks təkrar emalı həyata keçirilir. Ağac emalının bu cür kompleks üsulla təşkili müəssisədə oduncağın maksimum istifadəsinə, texnoloji prosesin bütün mərhələlərində xammal itkisinin azalmasına imkan yaradır. Belə şəraitdə müəssisənin idarəetmə sistemində məhsul satışının, onun istehlakçılara göndərilməsi və realizəsinin təşkili mühüm əhəmiyyət kəsb edir. Bütün bunları əsas götürərək ağac emalı və mebel istehsalı müəssisələrinin yerləşdirilməsi bir sıra cəhətlər nəzərə alınmaqla həyata keçirilir. Məsələn, faner istehsal edən müəssisələrin yerləşməsində xammala yaxınlıq, kağız-sellüloz istehsalında isə, həm də su resurslarına və istehlak rayonlarına yaxınlıq əsas rol oynayır. Oduncağın mexaniki emalı və kimyəvi təkrar emalı ilə bağlı nisbətən mürəkkəb sahə olan sellüloz-kağız sənayesində böyük həcmdə sudan istifadə olunur. Belə ki, 1 ton sellülozun istehsalı üçün orta hesabla 5-6 kub oduncaqla yanaşı, həm də 350 m3 su tələb olunur. Qeyd etməliyik ki, mebel istehsalı əsasən Apşeron yarım adasında və xüsusən Bakı şəhərində cəmləşib.

Mebel istehsalı müəssisələrinin yerləşdirilməsində isə, əsas amil kimi istehlakçılara yaxınlıq çıxış edir. Mebel sənayesində istehsalın ixtisaslaşdırılmasının 3 əsas forması - əşya üzrə, hissə üzrə və texnoloji ixtisaslaşma formaları vardır. Mebel sənayesində həm ağac-faner (yeşik, yarımyeşik, nov və s.), həm də metal (stul və qoltuqlu kürsü karkasları, korpus mebeli üçün altlıqlar, yumşaq mebel üçün yay blokları və s.) istiqamətlərdə yığma vahidləri və aqreqatlar üzrə ixtisaslaşma mövcuddur və getdikcə digər formalardan daha çox üstünlük təşkil edir Digər sənaye sahələrində olduğu kimi, mebel sənayesində də universal və ixtisaslaşdırılmış müəssisələr fəaliyyət göstərir. Universal istehsal hər şeydən əvvəl hazır mebellərin, habelə az sayda, lakin çox geniş çeşiddə müxtəlif detalların və quraşdırma hissələrinin hazırlanması ilə xarakterizə olunur. Universal istehsal hər şeydən əvvəl hazır mebellərin, habelə az



sayda, lakin çox geniş çeşiddə müxtəlif detalların və quraşdırma hissələrinin hazırlanması ilə xarakterizə olunur.

Universal müəssisələr hazırlanan məmulatların müvəqqəti və tez-tez dəyişən çeşiddə olması, istehsalın fərdiliyi və az seriyalılığı, tətbiq edilən avadanlıqların və texnoloji proseslərin böyük müxtəlifliyi, habelə böyük həcmdə əl əməyi ilə fərqlənir. Bu tip müəssisələr bir qayda olaraq texniki cəhətdən və öz aralarında kooperasiyanın zəif inkişafı ilə diqqəti cəlbedirlər.

Ağac emalı və mebel istehsalı və kağız-sellüloz sənayesi də bir çox inkişaf mərhələsindən keçmiş, hər tarixi inkişaf mərhələsində özünəməxsus xüsusiyyətlər kəsb etmişdir. Bu baxımdan XX əsrin 50-ci illərinə qədər, 70-80-ci illər və Azərbaycan müstəqillik əldə etdikdən sonrakı dövr xüsusilə xarakterikdir. Bunların ayrılıqda öyrənilməsi, mövcud təcrübənin ümumiləşdirilməsi ağac emalı və mebel istehsalı sənayesinin müasir inkişaf xüsusiyyətlərinin aşkara çıxarılması və gələcək inkişafının müəy-yənləşdirilməsi baxımından əhəmiyyətlidir.

Bu fəsildə ağacemalı və mebel istehsalı sahəsində bir çox ölkələrin təcrübəsinin təhlili verilmişdir. Dünyada mebel istehsalı 2008-ci ildə sürətlə artıb 350 mlrd.dollar, 2010-cu ildə 376 mlrd.dollar təşkil etmişdir.Hazırda mebel istehsalı və ixracında üstün mövqe tutan ölkələr (Çin, Yaponiya, İtaliya, Macarıstan, ABŞ, Almaniya, Kanada, Böyük Britaniya, Fransa) xammalın 90-95% idxal edirlər.

Beləliklə, mebel istehsalı üçün xaricdən alınan xammal bir çox ölkələrdə əsas yer tutur. Azərbaycan da bu ölkələr sırasındadır. Bu sahənin inkişafında XX əsrin 50-ci illərinə qədər, 70-80-ci illər və Azərbaycan müstəqillik əldə etdikdən sonrakı dövr xüsusilə xarakterikdir. XX əsrin əvvəllərində meşə, ağac emalı və kağız sellüloz sənayesi xırda kustar istehsal sahələrindən, emalatxanalardan ibarət olmaqla yerli əhalinin tələbatına uyğun olaraq ağac kəsmək və müxtəlif ağac məmulatları və mebel istehsalı ilə məhdudlaşırdı.

1920-ci illərdə Bakıda ilk tikinti ağac materialları emalatxanası fəaliyyət göstərmişdir. Kustar emalatxana və kiçik müəssisələrə Azərbaycanın iqtisadi baxımdan nisbətən inkişaf etmiş əksər şəhər və rayonlarında (Lənkəran, Astara, Şəki, Zaqatala, Quba. Xaçmaz, Abşeron, Naxçıvan MR, Gəncə, Qazax, Qarabağda) az da olsa təsadüf olunurdu. Tikintinin inkişafının ilk illərində ağac materialından çox istifadə edilmişdir. Respublikanın müxtəlif regionlarında kustar emalatxanalarda qapı, pəncərə və s. tikinti materialları hazırlanırdı. Lakin XX əsrin birinci yarısında iqtisadiyyat sahələrinin, xüsusilə sənaye və tikintinin sürətli inkişafı, şəhər

əhalisinin artması, əhalinin mədəni-məişət şəraitində baş verən irəliləyişlər meşə, ağac emalı və mebel istehsalının inkişafına da özünün müsbət təsirini göstərirdi.

1960-1970-ci illərdə ağac emalı, mebel istehsalı və kağız-sellüloz sənayesinin artım sürəti bütövlükdə sənayedəki artıma demək olar ki, uyğun olmuşdur. Belə ki, 1960-cı ilə nisbətən 1970-ci ildə bu sahədə ümumi məhsul istehsalı 232%, əsas istehsal fondları 278%, istehsal heyəti 120% olmuşdur. Ağacemalı və mebel istehsalı çox sahəli xarakter almışdır. 1960-1970-ci illərdə ağac emalı, kağız-sellüloz sənayesinin sahə quruluşunda xeyli dəyişikliklər baş vermişdir. Belə ki, meşə istismarının xüsusi çəkisi xeyli azalmış, yəni məhsul istehsalı 1960-cı ildəki 12,5%-ə qarşı azalaraq 8,0% olmuşdur. Buna müvafiq olaraq işçi qüvvəsi və əsas istehsal fondlarının da xüsusi çəkisi xeyli aşağı düşmüşdür. Ağac emalının strukturunda isə mebel istehsalının xüsusi çəkisi artmışdır. Məhsul istehsalı 34,9%-ə qarşı 46,8%, işçi qüvvəsi 38,1%-ə qarşı 46,3% və əsas fondlar 31,7%-ə qarşı 48,9% olmuşdur. Bu sahənin texniki bazası xeyli təkmilləşmişdir. 1960-cı ildə, kağız-sellüloz sənayesi yeni yaranmağa başladığı halda 1970-ci ildə məhsul istehsalı, işçi qüvvəsi və əsas istehsal fondlarında bu sahənin xüsusi çəkisi müvafiq olaraq 5,7%; 5.6% və 1,2% olmuşdur. 1970-ci illərdə ağac emalı və mebel istehsalı, kağız- sellüloz sənayesi məhsulunun daha sürətlə artması və ölkənin artan tələbatına uyğunlaşdırılması üçün xammalın kompleks emalı, tullantıların azaldılması və yeni növ (ağac çarpayı, mebel komplekti, uşaq çarpayısı və s.) məhsullar istehsalı, istehsal olunan məhsulların keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər görülürdü. Bununla yanaşı 1985-1986-cı illərdən başlayaraq bir sıra məhsul növlərinin (bütün növ şkaflar, divan kuşetka və s.) istehsalı azalmağa başlamışdır.

Məlum səbəblərə görə sonrakı illərdə bu azalma prosesi davam etmişdir. Cədvəl 1-dən göründüyü kimi, əgər 1965-1970-ci illər üçün ağac emalı, mebel istehsalı və kağız-sellüloz sənayesində yeni sahələrin meydana gəlməsilə xarakterik idisə, sonrakı illər bu sahələrin, xüsusilə mebel istehsalı və kağız-sellüloz sənayesinin xüsusi çəkisinin artması və ağac kəsmənin azalması ilə xarakterizə olunur. Belə ki, əgər 1980-ci ildə sahənin məhsulunun 8,0%-i, əsas istehsal fondlarının 12,2%-i və işçi qüvvəsinin 7,8%-i ağac kəsmənin payına düşürdüsə, sonrakı illərdə bu göstəricilər mütəmadi olaraq azalmış 1985-ci ildə müvafiq olaraq 3,8; 4,3 və 7,2% olmuşdur.

Ağac kəsmənin xüsusi çəkisinin belə kəskin azalmasının əsas səbəbi Azərbaycan xalq təsərrüfatı sahələrinin sürətli inkişafı və buna uyğun olaraq ağac emalı məhsullarına, xüsusilə mebel, tara və kağız-sellüloz



istehsalının məhsullarına tələbat artmış və buna müvafiq olaraq sahənin ümumi göstəricilərində bu sahələrin xüsusi çəkisi də artmışdır.

Cədvəl 1

Respublikada ağac emalı və mebel istehsalı sənayesinin istehsal quruluşu (yekuna görə, %-lə)

| Sahələr | Ümumi məhsul | əsas istehsal fondları | Sənaye istehsal heyəti | Ümumi məhsul | əsas istehsal fondları | Sənaye istehsal heyəti | Ümumi məhsul | əsas istehsal fondları | Sənaye istehsal heyəti |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1980 | | | 1985 | | | 1990 | | |
| 1. Ağac kəsmə | 8,0 | 12,2 | 7,8 | 3,8 | 4,3 | 7,2 | 2,0 | 2,2 | 3,6 |
| 2. Ağac emalı | 86,3 | 82,2 | 95,0 | 86,6 | 90,4 | 86,8 | 86,8 | 88,9 | 87,8 |
| a) taxta-şalban | 8,7 | 9,0 | 7,8 | 3,8 | 4,6 | 2,2 | 3,0 | 4,2 | 3,5 |
| b) tikinti məmulatı | 20,5 | 17,1 | 24,5 | 17,7 | 17,0 | 31,9 | 11,4 | 16,8 | 39,2 |
| v) tara istehsalı | 8,8 | 6,5 | 5,3 | 17,1 | 14,4 | 4,4 | 13,2 | 11,5 | 5,5 |
| q) mebel istehsalı | 46,0 | 46,3 | 48,4 | 57,0 | 58,6 | 38,4 | 64,2 | 49,1 | 49,1 |
| 3. Kağız-sellüloz sənayesi | 5,7 | 5,6 | 1,2 | 9,6 | 5,3 | 6,0 | 11,9 | 8,9 | 8,6 |

Dissertasiyanın **“Müstəqillik illərində ağac emalı və mebel istehsalının inkişafı, sahə və ərazi quruluşunun formalaşma xüsusiyyətləri”** adlanan ikinci fəslində müstəqilliyin ilk illərində ağac emalı və mebel istehsalının böhranlı vəziyyəti və onu aradan qaldırmaq üçün görülən tədbirlər, ağac emalı-mebel istehsalının inkişafının və sahə quruluşunun müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi, istehsalin ərazi quruluşu, xammal təchizatı, iqtisadi əlaqələri və tənzimlənməsi vəziyyətinin təhlili kimi məsələlərəbaxılır.

Respublika müstəqillik aktı qəbul etdikdən sonra (18 oktyabr 1991-ci il) baş verən kəskin siyasi hadisələrlə (Ermənistanla müharibə, nümayişlər, yoxsulluq, işsizlik) əlaqədar olaraq onun iqtisadiyyatında 80-ci illərin ortalarından başlanan tənəzzül daha da kəskinləşmiş, 1991-1994-cü illərdə istehsalın bütün sahələrində məhsul istehsalı kəskin surətdə azalmışdır. Keçmiş Sovet İttifaqının xalq təsərrüfatının bir hissəsi kimi formalaşmış ölkə iqtisadiyyatının təssərüfat əlaqələrinin kəsilməsi, istehsal sahələrini iflic vəziyyətinə salmışdı. İxtisaslaşmış və başqa respublikalara məhsul göndərən müəssisələrin demək olar ki, hamısı respublika əhəmiyyətli müəssisələrin əksəriyyəti öz fəaliyyətini dayandırmalı oldu. Əksər müəssisələr öz istehsal gücünün 15-20%-i səviyyəsində işləyirdi. 1991-1994-cü illərdə sənayedə istehsal həcminin orta illik aşağı düşməsi 20-24%-ə, kənd təsərrüfatında 15-20%-ə, kapital qoyuluşunda 40%-ə çatırdı.

Respublikada ümumi sənaye məhsulu istehsalı özündən əvvəlki ilə nisbətən 1992-ci ildə 30,4%, 1993-cü ildə 19,7% və 1994-cü ildə 24,7% - 1992-1994-cü illərdə bütövlükdə 58% azalmışdır.

Ağac emalı, mebel istehsalı və kağız-sellüloz sənaye sahəsinin inkişafı başlıca olaraq kənardan daşınan xammal ilə əlaqədar olmuşdur. Müstəqillik qazandıqdan sonra xammalın gətirilməsi çətinləşmişdir. Bu da öz növbəsində onsuz da zəif inkişaf etmiş ağac emalı, mebel istehsalı və kağız-sellüloz sənayesinin öz fəaliyyətini tamamilə dayandırmasına səbəb olmuşdur. Belə bir fakt diqqəti cəlb edir ki, Respublikada 1985-ci ildə 279 min kub metr taxta istehsal edilməsinə rəğmən sonrakı illərdə bu göstərici azalaraq, 1990-cı ildə 126 və 1994-cü ildə 7 min kub metrə düşmüşdür. Ağac emalı və kağız-sellüloz sənayesində mövcud olan çətinliklərin aradan qaldırılması və düzgün inkişaf yolunun seçilməsi üçün əvvəlcədən həmin nöqsanların xarakterini, düşdüyü vəziyyəti doğuran səbəbləri düzgün qiymətləndirmək tələb olunurdu.

Doğrudur Respublikanın bazar iqtisadiyyatına keçilməsi ilə hökumət tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Belə tədbirlərdən biri meşə və ağac emalı sənayesinin müəssisələri əsasında yaranmış "Azərmebelsənaye" konsernidir. Lakin bu tədbir ilk illərdə bir müsbət nəticə verməmişdir.

Ağacemalı və mebel istehsalı sahəsində böhran 1992-1994-ci illərdə daha kəskin xarakter daşımışdır. Yalnız 1993-1994-cü illərdə ağacemalı 5.6 dəfə, o cümlədən mebel istehsalı 3.3 dəfə, parket 6.1 dəfə, ağacyonqarı plitələri 5.7 dəfə azalmışdır. Digər məhssul növlərində də belə kəskin azalma olmuşdur. Eyni zamanda respublikaya gətirilən bütün ağacın daha az hissəsi emal üçün yararlı olmuşdur. Emal üçün yararlı ağac növləri 1985-ci ildə 7 min m3, 1990-ci ildə 3.6 min m3, 1995-ci ildə 2.5 min m3, və 1996-ci ildə 1.4 min m3 olmuşdur. Nəticədə 1990-ci ilnən müqayisədə 1996-ci ildə ümumsənaye məhsulu 28.1%, ağac emalı və mebel istehsalında isə 15.8% olmuş və ya 6.3 dəfə azalmışdır.

Lakin, 1995-1998-ci illərdə Dövlət Proqramına uyğun olaraq kiçik və orta müəssisələrin özəlləşdirilməsi, 1997-2000-ci illərdə kişik və orta sahibkarlığa Kömək Dövlət Proqramının və digər tədbirlərin reallaşması, 2000-ci ildən sonrakı illərdə ağacemalı və mebel istehsalı sahəsində də inkişafa müsbət təsir göstərdi.

Cədvəl 2-dən göründüyü kimi, ağacemalı və mebel istehsalında müəssisələrin sayı 2005-ci ildə 63, 2011-cu ildə isə 87 olmuşdur. Fərdi sahibkarların sayı azalaraq, 2005-cu ildəki 1049-a qarşı 2011-cu ildə 671 nəfər olmuşdur. Məhsulun həcmi və artım tempi qeyri sabit dəyişir. Respublikamızda istehsal olunan sənaye məhsulunun 2010-cu ildə 0,205, 2011-ci ildə 0,18%,



sənaye işçilərinin müvafiq olaraq 2,5 və 2,6%-i ağacemalı və mebel istehsalın payına düşmüşdür. Əsas kapitala investisiya qoyuluşunun sənayedə xüsusi çəkisi də çox çox aşağı səviyyədədir. Natura formasında bir çox əsas məhsullara istehsal həcmi gah artır,gah da azalır (taxta qapı və pəncərə blokları, yataq, qonaq otağı, ofis və ticarət məssisələri üçün mebellər istehsalı 2009-ci ilə nisbətən, 2010-2011-ci illərdə azalmışdır.

Cədvəl 2

Ağac emalı və mebel istehsalı müəssisələrinin əsas iqtisadi göstəricilərinin dinamikası

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|
| Fəaliyyətdə olan müəssisələrin sayı (ədəd), cəmi<br>dövlət<br>qeyri-dövlət | 63<br>12<br>51 | 67<br>8<br>59 | 74<br>7<br>67 | 77<br>7<br>70 | 79<br>8<br>71 | 79<br>7<br>72 | 87<br>7<br>80 |
| Qeydə alınmış fərdi ahibkarların sayı, nəfər | 1049 | 952 | 983 | 947 | 899 | 637 | 671 |
| Sənaye məhsulunun ümumi həcmində ağac emalı və mebel istehsalının payı,%-lə<br>O cümlədən mebel istehsalı | 0,3<br>0,2 | 0,2<br>0,1 | 0,105<br>0,1 | 0,205<br>0,2 | 0,205<br>0,2 | 0,205<br>0,2 | 0,18<br>0,14 |
| Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin payı, faizlə:<br>ağac emalı,<br>mebel istehsalı | 0,8<br>0,9 | 0.7<br>1,0 | 0.8<br>1,1 | 0.8<br>1,5 | 0.7<br>1,8 | 0.9<br>1,6 | 0,9<br>1,7 |
| Bir işçinin orta aylıq əmək haqqı, manat | 24,4 | 52,8 | 79,8 | 148,0 | 179,7 | 182,8 | 316,6 |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi, əvvəlki ilə nisbətən, faizlə | 108,8 | 114,9 | 114,0 | 118,8 | 173,7 | 113,3 | 99,1 |
| Əsas məhsul növlərinin natura ifadəsində istehsalı:<br>Taxta qapı və pəncərə blokları, ədəd<br>Taxta lövhəli parket, min kv. metr | 20191<br>11,9 | 12509<br>13,8 | 13360<br>13,4 | 33236<br>15,7 | 73100<br>12,0 | 35424<br>5,2 | 29,61<br>11 |
| Yataq otağı üçün mebel-dəst | 2327 | 3 016 | 29348 | 15 830 | 16 810 | 14 850 | 9394 |
| Yemək və qonaq otaqları üçün taxta mebel, dəst | 9357 | 8 083 | 1 249 | 5 079 | 1128 | 9 630 | 6906 |
| Ofis və ticarət müəssisələri üçün mebel, dəst | 22903 | 27980 | 56935 | 105820 | 115246 | 111440 | 62503 |
| Yumşaq mebel (divan və kürsülər), ədəd | 4153 | 4 920 | 3 042 | 2 294 | 2 700 | 2 627 | 3834 |
| Metal yaylı döşəklər, ədəd | -- | 7 158 | 9 811 | 15014 | 14035 | 11429 | 664 |

Cədvəl 3

Azərbaycanda meşə və ağac emalı sənayesinin ərazi quruluşu (yekuna görə %-lə).

| İqtisadi rayonlar | Əhalisi | Cəmi | | | O cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Mebel istehsalı | | | Ağac emalı | | |
| | | İstehsal heyəti | Ümumi məhsul | Əsa istehsal fondları | İstehsal heyəti | Ümumi məhsul | Əsa istehsal fondları | İstehsal heyəti | Ümumi məhsul | Əsa istehsal fondları |
| 1. Bakı-Sumqayıt | 28,9 | 63,3 | 70,8 | 69,2 | 63,3 | 70,8 | 76,3 | 69,4 | 70,8 | 61,3 |
| 2. Gəncə-Qazax | 16,7 | 9,7 | 10,5 | 6,8 | 12,0 | 20,2 | 5,7 | 8,4 | 10,7 | 8,0 |
| 3. Aran | 27,0 | 3,6 | 3,1 | 3,9 | - | - | - | 5,8 | 5,2 | 8,2 |
| 4. Şəki-Zaqatala | 6,5 | 2,8 | 2,0 | 2,1 | 4,4 | 3,3 | 2,3 | 2,0 | 1,1 | 1,8 |
| 5.Lənkəran-Astara | 6,3 | 6,1 | 3,5 | 7,2 | 3,9 | 3,7 | 6,4 | 7,4 | 3,5 | 8,2 |
| 6. Dağlıq Şirvan | 1,9 | 2,8 | 1,3 | 2,2 | - | - | - | 4,5 | 2,2 | 4,6 |
| 7.Naxçıvan MR | 3,9 | 1,0 | 1,1 | 1,5 | 2,6 | 2,1 | 2,5 | - | - | - |

Cədvəl 3-dən göründüyü kimi, ağacemalı və mebel istehsalı sənayesi əsasən Abşeron iqtisadi rayonunda cəmləşmişdir. Sahədə məhsul istehsalının 71%-ə qədəri, əsas istehsal fondlarının 69.2% -i Abşeron iqtisadi rayonun payına düşür. Sonrakı yerləri Gəncə-Qazax, Lənkəran-Astara və Şəki-Zaqatala iqtisadi rayonları tutur. Digər iqtisadi rayonlarda sahə olduqca zəif inkişaf etmişdir. Aran iqtisadi rayonunda isə mebel istehsalı demək olar ki yox dərəcəsindədir. Naxçıvan MR-da ağacemalı və mebel istehsalı kifayət qədər inkişaf etməmiş, ağacemalı isə məlum səbəblərə görə yox dərəcəsindədir.

Mebel istehsalının Bakı-Sumqayıt bölgəsində təmərküzləşməsi Aran iqtisadi rayonu əhalisinin mebelə olan tələbatının əsasən Abşeron iqtisadi rayonunun istehsalı hesabına ödənilməsinə səbəb olur. Belə vəziyyət nəqliyyat xərclərini artırır, mebelin keyfiyyətini aşağı salır. Bunlar da öz növbəsində müasir şəraitdə mebelin daha baha qiymətlərə satılmasına səbəb olur.

Respublikanın iqtisadi rayonları üzrə ağac emalı sənayesinin inkişafının və eləcə də quruluşunun qeyri-mütənasibliyi bu sahədə bütün texniki-iqtisadi göstəricilərin kifayət qədər qənaətbəxş olmamasına gətirib



çıxarmışdır. Əgər Bakı-Sumqayıt bölgəsində ağac emalı sənayesinin hər nəfərə görə məhsul istehsalı vahid qəbul edilərsə bu göstərici digər rayonlarda demək olar ki, 0,2-0,3-dən artıq deyil. Eyni zamanda bu rayonda da istehsalın həcmi əhalinin tələbatından aşağı olmaqla onun cəmi 20-30 faizini ödəyə bilər. Ağac emalı sənayesinin və onun ayrı-ayrı sahələrinin Bakı-Sumqayıt bölgəsində nisbi mənada yüksək inkişafı başlıca olaraq məhsuldar qüvvələrin bu rayonda, başqa bölgələrə nisbətən daha yüksək inkişaf etməsi ilə əlaqədardırsa, digər tərəfdən qalan rayonlarda ümumiyyətlə məhsuldar qüvvələrin xüsusilə sənaye sahələrinin və tikintinin nisbətən zəif inkişafı və yerli xammaldan aşağı səviyyədə istifadə olunması ilə əlaqədardır.

Belə bir cəhət diqqəti xüsusi cəlb edir ki, 2005-ci ildən başlayaraq, mebellərin istehsalında (yumşaq mebellərin istehsalı istisna olmaqla) orta hesabla artım müşahidə edilməkdədir və bu sahə üçün istehsal artımı dinamik səciyyə daşıyır. Bununla yanaşı, sahə üzrə fəaliyyət göstərən müəssisələrin sayında azalma müşahidə edilir. Belə ki, Respublikada mebellərin istehsalı ilə məşğul olan müəssisələrin sayı 2000-ci ildəki 116-dan, 2004-cü ildə 136-ya qədər artsa da 2009-cu ildə bu rəqəm 94-ə qədər azalmışdır. Bu müddət ərzində bu sahədə dövlət müəssisələrinin sayı 15-dən 3-ə qədər (və ya 80%), qeyri-dövlət müəssisələrinin sayı isə 101-dən 91-ə qədər (və ya 10%) azalmışdır.

Tədqiqat aparılan sahələr üzrə qeydə alınmış fərdi sahibkarların sayının müəyyən qədər çox olmasının əsas səbəbləri, onların müəssisələri kiçik olduğuna, güclü əsas fondların mövcud olmasına ehtiyac olmamasına görə bu sahədə fərdlərin məşğul olması imkanlarının genişliyidir. Qeyd edək ki, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, 2003-2004-cü illərdə 1-49 nəfər işçisi olan sənaye müəssisələri kiçik, 50-150 nəfər işçisi olan müəssisələr orta və 150 nəfərdən artıq işçisi olan müəssisələr isə, iri müəssisələrə aid edilirdilər.

Ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti “Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin “bir pəncərə” prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında” 2007-ci il 25 oktyabr tarixli Sərəncam imzalamışdır. Sərəncama əsasən, "bir pəncərə" prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikasının Vergilər Nazirliyi müəyyən edilmiş və 2008-ci ilin 1 yanvar tarixindən Azərbaycanda bu sistemin tətbiqinə başlanmışdır. “Bir pəncərə” sisteminin tətbiqindən sonra Azərbaycanda biznesə başlama

proseduraları 15-dən 1-ə və bunun üçün sərf olunan vaxt 30 gündən 3 günə endirilmişdir.

Dissertasiya işinin **"Ağac emalı və mebel istehsalının perspektiv inkişafı və ərazi təşkilinin təkmilləşdirilməsi istiqamətləri"** adlı üçüncü fəslində Respublikanın meşə fondundan səmərəli istifadə və ağac emalı, mebel istehsalının inkişafının ümumi istiqamətləri, istehsalin təşkilinin texniki, texnoloji və innovativ potensialından istifadəsi, istehsalin sahə və regional strukturunun təkmilləşməsi, mebel çeşidlərinin artırılması və keyfiyyətinin yüksəldilməsi kimi məsələr tədqiq olunub.

Dünyanın bütün inkişaf etmiş ölkələrində olduğu kimi, MDB ölkələrində də müvafiq dövlət orqanları meşələrin istifadəsi sahəsində normativlərə, həmçinin meşə ehtiyatlarının keyfiyyətli təkrar istehsalının təmin edilməsinə nəzarəti meşə məcəlləsi vasitəsilə həyata keçirirlər. MDB ölkələrində meşə məcəlləsi qəbul edilmişdir və hazırda qüvvədədirlər. Diqqəti cəlb edən cəhət budur ki, MDB ölkələri arasında ilk olaraq bu məcəllələr meşə sahələri nisbətən az olan ölkələrdə: Türkmənistanda və Tacikistanda 1993-cü ildə, Ukraynada 1995-cü ildə, Moldovada 1996-cı ildə, Gürcüstan və Qırğızıstanda 1999-cu ildə, Belarusda 2000-ci ildə, Qazaxıstanda 2003-cü ildə, Ermənistanda 2005-ci ildə və Rusiya Federasiyasında 1997-ci ildə qəbul edilmişdir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına görə, hazırda Azərbaycan meşələrinin ümumi sahəsi 989,4 min hektardır. Bu da Azərbaycan ərazisinin 11,4%-ni təşkil edir. Beləliklə də, Respublikamız meşəsi az olan ölkələr siyahısındadır. Müqayisə üçün bildirək ki, bu rəqəm Rusiya Federasiyasında 44%, Latviyada 41%, Gürcüstanda 39% təşkil edir.Halbuki, XVIII-XIX əsrlərdə indiki Azərbaycan ərazisinin 35%-i meşə ilə örtülü olmuşdu. Hazırda cavan meşələr meşə ilə örtülü sahənin 11,2%-ini, orta yaşlı ağaclar 63,3%-ini, yetişməkdə olan ağaclar 13,4%-ini, yetişmiş və yaşı ötmüş meşələr 12,1%-ini təşkil edir. Bu rəqəmlər isə, hal-hazırda Respublikamızdakı meşələrin yaş baxımından nisbətən cavan olduğunu göstərir. Lakin Respublikamızın meşələrində əsas meşə əmələgətirən növlər azdır. Bu isə, meşə sahələrinin qorunmasına, yeni meşə sahələrinin salınmasına həmişə xüsusi diqqət ayrılmasını tələb edir.

30 dekabr 1997-ci il tarixində (№424-1Q) "Azərbaycan Respublikası Meşə Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, 3 mart 1998-ci il tarixindən qüvvəyə minmişdir. 1999-2011-cu illərdə məcəllədə müvafiq qanun və sərəncamlarla bir neçə dəfə əlavə və dəyişikliklər edilmişdir. Bu Məcəllə Azərbaycan Respublikasının ərazisində meşə münasibətlərinin tənzimlənməsinin,



meşələrdən istifadənin, onların mühafizəsinin, qorunmasının, bərpasının, ekoloji və ehtiyat potensialının yüksəldilməsinin hüquqi əsaslarını müəyyən edir. Məcəllənin 3-cü maddəsinə əsasən "Azərbaycan Respublikası meşə qanunvericiliyinin məqsəd və vəzifələri meşələrin əhəmiyyətini nəzərə almaqla onları elmi əsaslarla idarə etmək, meşə ekosisteminin bioloji müxtəlifliyini saxlamaq, meşələrin ehtiyat potensialını yüksəltmək prinsipləri əsasında onlardan səmərəli istifadəyə, meşələrin mühafizəsini, qorunmasını və bərpasını təmin etməyə yönəldilmişdir".

Dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da hazırlanmış xüsusi dövlət proqramına görə Respublikamızda meşələrin sahəsinin optimal həddə – ərazinin 20%-inə qədər artırılması nəzərdə tutulub. Respublikamızda meşə sahələrinin azlığı, həm də burada qiymətli ağac cinslərinin çoxluğu səbəbindən meşələrimizdə sənaye əhəmiyyətli ağac kəsimi aparılması qadağan edilmişdir. Yalnız onların məhsuldarlığını artırmaq, cins tərkibini yaxşılaşdırmaq, qoruyucu funksiyalarını yüksəltmək məqsədilə xidməti qırıntılar aparılır və yeni meşəliklər salınır. Ağacemalı və mebel istehsalı üçün materialları ancaq idxal olunur. Respublika meşələrində isə, quruyan, çıxdaş edilən müxtəlif səbəblərdən kəsilməsi və seyrəldilməsi lazım bilinən ağac və oduncaq emalı hesabına ağac emalı sənayesində istifadə edilir.

Hesab edirik ki, ağac emalı və mebel sahəsində yaranmış vəziyyətinin daha da səmərəli inkişaf edilməsi üçün müəssisələrdə mütərəqqi idarəetmə üsullarından, həmçinin səmərəli təşkil olunmuş idarəetmə strukturlarından istifadə olunmalıdır. Bizim fikrimizcə, aşağıdakı təşkilatı-idarəetmə strukturu qeyd olunan sahənin müəssisələrinin səmərəliliyini və dayanaqlı inkişafını təmin edə bilər ( şəkil 1).

Eyni zamanda qeyd edək ki, meşələrin sahəsinin azalması, seyrəkləşməsi onların cins tərkibinin ikinci dərəcəli cinslərlə əvəz olunması prosesi bu gün də davam edir və müfaviq problem yaradır. Meşə təsərrüfatının problemləri və onların həlli istiqamətində aşağıdakılara diqqətin artırılması zəruridir:

- respublikamızın ərazilərində, xüsusilə də az meşəli aran rayonlarında meşəbərpa və qoruyucu meşə zolaqlarının həcmininin bir neçə dəfə artırılması;
- dövlət meşə fondu torpaqları ilə yanaşı iri sənaye müəssisələri ətrafında böyük sahələrdə yaşıllıqların salınması;
- respublikamızın regionlarında emal üçün yararlı ağac növlərinin əkilməsi, onların bitməsinin sınaqdan keçirilməsi və mebel istehsalı üçün az-çox yararlı meşə fondunun çoxalması istiqamətində tədbirlərin

görünməsi;

- yaranmış əlverişli şəraitdən (rayonların təbii qazla təminatının səviyyəsi yüksəlir) istifadə edərək, yanacaq növü kimi odundan istifadə edilməsi məhdudlaşdırılmalı, bu sahədə çatışmamazlıq Rusiyadan gətirilən odun və kömür ilə (əvvəllər Rusiyadan 1.2-1.5 mln. m2 odun, 200-250 min ton daş kömür gətirilirdi) əvəz olunmalıdır;

- meşə oduncağından daha səmərəli istifadə etmək üçün ağac emalı və mebel sənayesini inkişaf etdirmək vacibdir. Bu məqsədlə Respublikamızda tez böyüyən ağac növlərindən məqsədli plantasiyalar salınmasının həcmini genişləndirmək lazımdır.




**Şək. Mebel sənayesi müəssisənin optimal təşkilati strukturu**

Qeyd edək ki, Respublikamızın meşə təsərrüfatının üzləşdiyi ağır problemlərdən biri də qonşu Ermənistan tərəfindən ölkəmizə qarşı edilən təcavüz nəticəsində xeyli ərazilərimizin işğala məruz qalmasıdır. Belə ki, meşələrinin sahəsi Respublikamızın ümumi meşə sahəsindən 3 dəfə az olan Ermənistanda 1989-cu ildə oduncaq daşınmasının ümumi həcmi 58 min m3 olduğu halda, 1993-cü ildə 3,5 dəfə artaraq 206,6 min m3, istilik oduncağın hazırlanması və daşınması həcmi isə 1988-ci ildə 7,2 min m3-dan 1,97 dəfə artaraq 1993-cü ildə 14,2 min m3 təşkil etmişdir. Bütün bunlara



Azərbaycan meşələrinin vəhşicəsinə qırılması nəticəsində nail olunmuşdur.

Respublikada parket pol üçün ağac lövhələr istehsalı sovet dövründə Bakı şəhərində olan böyük istehsal gücünə malik mebel fabrikində cəmlənmişdi. Sonrakı illərdə onun istehsal həcmi fasiləsiz olaraq azalma meyilli olmuşdur. Belə ki həmin göstərici, 2003-cü ildə 19.2 min m2, 2011-cu ildə isə 6.9 min m2 olmuşdur.Bakı, Sumqait və Zaqatala şəhərlərində mövcud istehsal sexləri genişləndirilə və istehsal həcmi 3 dəfə artırıla bilər. Ağac emalı və mebel istehsalı müəssisələrinin fəaliyyətinin tənzimlənməsi üçün müvafiq normativ-hüquqi bazanın və mexanizmlərin formalaşması da onların inkişafının mühüm şərtidir.

Ağac emalı və mebel istehsalı sənayesinin inkişafının bazarın tələblərinə uyğun tənzim və idarə edilməsi üçün aşağıdakıların həyata keçirilməsini məqsədəuyğun hesab edilir:

- sahənin inkişafına aid məqsədli proqramn hazırlanması;
- respublikada xammal ehtiyatları məhdud olduğundan ağac emalı və mebel istehsalının gələcək inkişafı və səmərəliliyinin artırılması istehsalın sahə və ərazi üzrə yeniləşməsi, texnoloji ixtisaslaşma və sahələr arası əlaqələrin güclənməsi, yeni texnoloji proseslərin tətbiqi, yeni materiallardan istifadə və istehsalın təşkilinin və strukturun təkmilləşdirilməsi istiqamətində getməlidir;
- mövcud tələbata uyğun maliyyə, kredit və vergi sistemi və siyasətinin təşkil olunması. Respublikada nisbətən böyük ağacemalı və mebel istehsalı müəssisələrin təşkilində, ilk növbədə, vergi və ya kredit güzəştləri tətbiq olunmalıdır;
- bu sənaye sahəsinin məhsullarının satışı üçün elmi cəhətdən əsaslandırılmış qiymət siyasətinin hazırlanması, qiymət qeyri-sabitliyinin minimuma endirilməsi;
- bu sahədə mülkiyyət formalarının müxtəlifliyi ayrılıqda hər müəssisənin mənafeyi nəzərə alınmaqla onların xarici iqtisadi əlaqələrinin, tənzim və idarə edilməsi tədbirlərinin işlənib hazırlanması;
- ağac emalı və mebel istehsalının spesifikliyi nəzərə alınaraq, kadrların hazırlanmasının əvvəllər mövcud olmuş sisteminin bərpa edilməsi, kadrların bölüşdürülməsi və əmək məşğuliyyəti sahəsində elmi cəhətdən əsaslandırılmış siyasətin aparılması;
- dövlət tabeliyində olan ağac emalı müəssisələri, mebel fabrikləri və meşə təsərrüfatları üçün tənzimləmə mexanizminin işlənib hazırlanması;
- ağac emalı və mebel istehsalı üçün yararlı meşələrin salınmasının dövlət tərəfindən hər cəhətdən dəstəklənməsi, bu sahələrə vergi və kredit güzəştlərinin tətbiq edilməsi;

- ağac emalı və mebel istehsalı müəssisələrin idarə olunmasının təşkilatı quruluşu təkmilləşdirilməli;
- respublikada istehsal olunan mebelləri daşınması, saxlanması və istifadəsi zamanı onlara xidmətin səviyyəsinin yüksəldilməsi;
- ağac emalı və mebel istehsalı sahələrinin innovasiya yönümlü inkişafı, birinci növbədə ağacların boşaldılması, çeşidlənməsi, yeniləri ilə əvəz olunması, yüksək keyfiyyətli quruducu kameraların məhsulunun çeşidlənməsi və keyfiyyətini müəyyənləşdirən hədəflərin işlənməsi;
- Aran,Gəncə-Qazax, Dağlıq Şirvan iqtisadi rayonlarında və Naxçıvan MR-da ağac emalı və mebel istehsalının artması üçün əlavə tədbirlər görülməsi;
- kiçik ağac emalı və mebel istehsalı sexlərində təsərrüfat fəaliyyətinə uçot-nəzarətin gücləndirilməsi, nisbətən böyük müəssisələrin tabeliyində olan kiçik sexlərin birləşdirilməsi.

Yuxarıda qeyd edilmiş problemləri həll etmək və tədbirləri həyata keçirmək üçün xeyli maliyyə vəsaiti tələb olunur. Respublikamızın indiki şəraitdə, maliyyə imkanları əvvəlki dövrlərdə olduğuna nisbətən xeyli artmışdır. Eyni zamanda bu işləri görmək üçün beynəlxalq təşkilatların, xüsusilə də ekoloji mühafizə təşkilatlarının maliyyə yardımından da istifadə etmək olar. Ona görə də müxtəlif təşkilatların qəbul etdiyi beynəlxalq konvensiyalara qoşulmaqla bu problemlərin bir çoxunu həll etmək mümkündür.

Bütün bunlar meşə təsərrüfatı və ağac emalı müəssisələrinin iqtisadi rayonlarda (regionlarda) müxtəlif mülkiyyət formalarına əsaslanan təsərrüfatçılıq formalarının inkişafının düzgün əlaqələndirilməsinin elmi cəhətdən əsaslandırılmış proqramının işlənib hazırlanması və həyata keçirilməsini vacib problem kimi qarşıya qoyur.

Zənnimizcə, ağac emalı zavodlarının və mebel fabriklərinin xüsusiləşdirilməsindən çox xüsusi, kollektiv, qarışıq meşə təsərrüfatı-ağac emalı müəssisələrinin yaradılması, müəssisədaxili və ayrı-ayrı istehsal bölmələrinin (taxta-şalban emalı sexlərinin) açılması məqsədəuyğundur. Bu cür təsərrüfat bölmələrinin yaradılması hər bir region və şəhərin konkret meşə təsərrüfatı və ağac emalı məhsuluna olan tələbatı və hələ kifayət qədər istifadə edilməyən, sanitar təmizlənməsi vacib olan sahələrin mövcudluğu nəzərə alınmalıdır.

Dissertasiya işinin yekununda müəllifin əldə etdiyi elmi nəticələr və mövcud problemlərin həlli üzrə müvafiq tövsiyyələr verilmişdir.

**Dissertasiya işinin əsas elmi müddəaları dərc olunmuş aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**



1. İqtisadi inkişaf və səmərəli innovasiya sistemi // İqtisadiyyat və Həyat jurnalı, iyun №6 (512) 2006-ci il, s.26-31.

2. Azərbaycanda XX əsrin 50-ci illərinə qədər ağac emalı mebel istehsalının inkişaf xüsusiyyətləri // Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri, Təbiət elmləri seriyası,Lənkəran, 2007, səh.80-84.

3. XX əsrin ikinci yarısında Azərbaycanda ağac emalı və mebel istehsalının inkişaf xüsusiyyətləri (retrospektiv baxış) // İqtisad elmləri: nəzəriyyə və praktika. Rüblik nəzəri və elmi –praktiki jurnal. № 3-4 (2007), Bakı, 2008, s.198-202.

4. Demokratik ölkələrdə ağac emalı –mebel istehsalı sahəsinin inkişafında müasir meyylər // AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi əsərləri, №3, 2011, s.429-433.

5. Совершенствование технико-технологического и инновационного потенциала деревоперерабатывающего и мебельного производства в Азербайджане / Сборник материалов II международной научно-практической конференции «Экономика и управление в XXI веке: тенденции развития» Новосибирск, 2011 г., стр. 185 -190.

6. Развитие технико-технологического и инновационного потенциала деревоперерабатывающего производства в Азербайджане / /Journal of Qafqaz University,№ 31, 2011, стр. 49-55.

7. Факторы, влияющие на эффективную организацию управления и производства в мебельной и деревоперерабатывающей промышленности / Материалы IV международной научно-практической конференции «Экономические науки в России и за рубежом» изд. «Спутник», Москва, 2011, стр.53-58.

8. Dövlət iqtisadi tənzimləmə və idarəetmə tədbirlərinin qeyri-neft sektoru sahəsinin inkişafina təsiri / Səmərəli Dövlət İdarəçiliyi: Zamanın çağırışları” mövzusunda beynalxalq elmi konfransın materialları (05-06.12.2011), Bakı, 2012, səh. 304-307.

9. Развитие маркетинговой деятельности на предприятиях деревопереработки и мебельной промышленности // журнал «Интеллект. Инновации. Инвестиции», Институт Государственного Менеджмента, Оренбург, №1, 2012 г. , стр. 42-50.

## Резюме

### Мамедов Замик Искандер оглы

### Современное состояние деревоперерабатывающей и мебельной промышленности Азербайджана и направления перспективного развития


Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

В первой главе диссертации были исследованы такие вопросы как теоретико-методологические основы развития деревоперерабатывающего и мебельного производства в условиях рыночной экономики, опыт ведущих стран в сфере деревоперерабатывающей и мебельной отрасли. Особенности развития территориальной организации отрасли в Азербайджане в 70-90-х г.г. XX века.

Во второй главе диссертации проведен анализ таких вопросов как осуществление мероприятий в направлении преодоления кризисной ситуации в деревоперерабатывающем и мебельном производстве в первые годы независимости, современное состояние и оценка территориальной структуры и развития деревоперерабатывающего и мебельного производства, состояние территориальной структуры, материального снабжения, экономических связей и регулирование деревоперерабатывающего и мебельного производства.

В третьей главе диссертации автором исследуются и выдвигаются предложения по таким аспектам как общие направления развития деревоперерабатывающего и мебельного производства и эффективное использование лесного фонда Азербайджанской Республики, совершенствование технического, технологического и инновативного потенциала организации производства, совершенствование организационного, управленческого и регулирующего механизма производства, совершенствование отраслевой и региональной структуры производства, рост ассортимента и качества мебельной продукции.




## Summary

### Mamedov Zamiq Iskander

### Modern statute of woodworking and furniture industry of Azerbaijan and direction of perspective development


Dissertation work consists of introduction, three heads, conclusion and list of the used literature.

In the first chapter of dissertation such questions as theoretical and methodological bases of development of woodworking and furniture production were investigational in the conditions of market economy, experience of leading countries on the modern stage in the field of woodworking and furniture industry, feature of development of woodworking and furniture production in Azerbaijan to 70th of XX century, features of development of woodworking and furniture production in Azerbaijan and its territorial organization in 1971-1990th.

In the second chapter of the dissertation the analysis of such questions as the held events for overcoming of a crisis situation in derevopererabatyvayushchy and furniture production in the first years of independence, modern situation and an assessment of territorial structure and development of woodworking and furniture production, position of territorial structure, material supplies, economic relations and regulation of woodworking and furniture production is held.

In the third chapter the author investigates and brings offers on such aspects as the general directions of development of derevopererabatyvayushchy and furniture production and effective use of wood fund of the Azerbaijani republic, improvement of technical, technological and innovativny capacity of the organization of production, improvement of the organizational, administrative and regulating mechanism of production, improvement of branch and regional structure of production, growth of the range and quality of furniture production.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot çap vərəqi 1,0 ç.v.
sifariş № 207, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə çap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102



**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Мамедов Замик Искандер оглы**

# Современное состояние деревоперерабатывающей и мебельной промышленности Азербайджана и направления перспективного развития

**5304.01 – «Виды экономической деятельности»**

## АВТОРЕФЕРАТ

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа – 2013**